**HƏZİN NƏĞMƏ *DOLU***

**«TƏZADLAR»...**

***Ancaq sevgilərim***
***çiçək açanda,***
***Ay buluddan qaçıb***
***şölə saçanda***
***Qəlbimdə yazılır***
***sirli nəğmələr,***
***İçimdə səslənir***
***həzin nəğmələr;***
***Şerlə qururam***
***hər bir cümləni,***
***Şerlə anıram küllü-aləmi.....***

Bu misralar Hamlet Isaxanlının «Təzadlar» kitabından götürülmüşdür. Tanınmış riyaziyyatçı, çoxşaxəli yaradıcılığa malik Hamlet Isaxanlını şer yazmağa sövq edən, onun özünün dediyi kimi, mənəvi ehtiyac olmuşdur. Onun şerlərində riyazi təfəkkürlə bədii qavrayış birləşmişdir.
Kitaba daxil olan şerlərin bir qismi ictimai məzmunludur. Bu şerlərin çoxunda cəmiyyətdə baş verən neqativ hallara qarşı üsyankarlıq, barışmazlıq, fəal həyat mövqeyində duruş gətirmək üçün göstərilən inadkarlıq var:

***Bu giiniim dünəni dandı,***
***İçim, ruhum alovlandı.***
***Atəş kül ilə barışdı,***
***Alova tüstü qarışdı.***
***Zaman mənə diş qıcadı...***

*(«Zaman»).*

«Yaşamağa nə var ki!...» şerində müəllif oxucunu «sözümüzün keşiyində durmağa»..., «hədəfləri bircə- bircə vurmağa», «gələcəyi günümüzdə qurmağa» - fəal vətəndaş mövqeyinə səsləyir. «Durmadan» şerində keşməkeşli həyat hadisələrinə münasibət bədii təzad şəklində verilib. Həcmcə çox kiçik olan bu şer mənaca geniş və dolğundur. Bədii sözün imkanından qənaətlə istifadə olunmuş və bədii ümumiləşməyə üstünlük verilmişdir:

***İşıqlar qaranlığa,***
***Qaranlıqlar işığa***
***Dönür, dönür durmadan.***
***Dünya dinclik bilməyir,***
***Yanır, sönür durmadan.***
***Işıqlarda, kölgədə***
***Keçir ömür durmadan.***

H. Isaxanlının şerlərində həyat eşqi, həyat sevgisi, yaratmaq həvəsi tükənməzdir:

***Bu diinyaya nə gətirdim ?***

***Bu dünyada***
***nə qoymuşam?***
***Nə bir işi tam bitirdim,***
***Nə həyatdan***
***tam doymuşam...***
*(«Qədim sual»)*

Bu misralarda qurub-yaratmaq həvəsilə yorulmadan çalışan bir insanın özünə qarşı təvazökarlıq dolu tələbkarlığı var. Bədii suallar şeri daha təsirli edir və oxucunu bir daha düşünməyə, keçdiyi həyat yoluna nəzər salmağa səfərbər edir.

Bədii ümumləşdirmə zamanı fikrin yığcam və dolğun, həm də dəqiq ifadəsi üçün terminlərin yeni poetik kontekstdə mənalandırılması bədii dildə yeni imkanlar açır. Bu zaman terminlər məcazi mənada işlədilməklə yeni üslubi rəng alır:

***Söz, qafiyə, məna,***
***ahəng ipə-sapa yatmadı,***
***Məxrəc böyük,***
***qiymət kiçik,***
***ölçülərim çaş oldu***
*(«Oldu»)*

Göründüyü kimi, terminlərdən yerli-yerində istifadə etdikdə bədii üsluba ağırlıq, xələl gəlmir.

«Təzadlar» kitabına daxil edilən şerlər içərisində əzəli-əbədi mövzuya - məhəbbət mövzusuna aid şerlər xüsusi yer tutur. Bu şerlərdə klassik poeziyadan gələn varislik, kökə bağlılıq var. Lakin bu, sadəcə təkrar deyil. Həmin şerlərdə nakam eşqin ürəkləri sızıldadan tərənnümü yoxdur. Sufilik var, lakin bu, vüsaldan qaçmaq səviyyəsində deyil. H. Isaxanlının məhəbbət poeziyası vüsal sonluğu olan poeziyadır. Daha doğrusu, vüsal var, son yoxdur. Çünkı, vüsaldan ilham alan lirik qəhrəmanda həyat eşqi, gözəlliklərdən zövq almaq həvəsi daha da güclənir:

***Məcnun olub, dərdi eşqlə***
***səhralara üz tutmadım,***
***İnsanlardan uzaq düşüb***
***ceyran-cüyür ovutmadım,***
***Xəyallara səcdə qılıb***
***vüsalını unutmadım,***
***Sadəcə, çox sevdim səni,***
***Səni sevdim çox sadəcə!..***
*(«Səni sevdim* **çox** *sadəcə»)*

Sadəlik, səmimilik lirik duyğuların, düşüncələrin əsasında dayanıb. Bu sadəliyi, səmimiliyi duymamaq, ona inanmamaq mümkün deyil. Bu şerdə inversiyadan çox məharətlə istifadə olunub. Məhəbbət mövzusunda yazılmış şerlər içərisində xüsusilə seçilən bu şeri H.Isaxanlı öz ömür-gün yoldaşına həsr etmişdir. Bu şerdə «sadə deyim»i, «gah gözəl, obrazlı deyim»i üstələmişdir. Lirik qəhrəmanın səsində uğurlu məhəbbətdən doğan bir məmnunluq və məğrurluq, bir sevinc var.

Şer nümunələrində bədii dilin imkanlarından, bədii təsvir və bədii ifadə vasitələrindən məharətlə istifadə olunmuşdur:

***Yolları örtdümü***
***dumanlı pərdə?***
***Təmiz hava***
***qalmadımı göylərdə?***
***Daha yoxmu sizi sevən***
***bu yerdə?***
***Küsdünüzmü qadir***
***haqdan, durnalar?*** *(«Durnalar»)*

Ənənəvi mövzuda yazılmış bu şerdə yeni məzmun var. Bəşəriyyəti narahat edən ətraf mühitin çirklənməsi, insanların təbiət gözəlliklərindən tədricən məhrum olması problemi qoyulub. Şer nümunəsində bütün misralar bədii sual şəklindədir. Əslində bunlar bəşəriyyəti düşündürən suallardır.

Metaforik lövhələrdə bədii obrazlardan yaradıcı şəkildə istifadə olunur:

***Gün axşama dönüncə***
***Qarabuğdayı gecə***
***Öz gündüz yuxusundan***
***qaş-qabaqla oyanır,***
***Tutqun rəngə boyanır.***
***Qaradır, qaragözlüm***
***Başım üstə dayanır***

*(«Möcüzə gecə»)*

Şerlərdəki söz düzümü, axıcılıq, məna dəqiqliyi vəhdət təşkil edib söz çələngi yaradır:

***Qoşa çaylar***

***Göy dənizdə qarışdı.***

***Bir xoş gündə***

***Ulduzutnuz barışdı***

*(«Bəndə sal»)*

Alliterasiyadan istifadə edilməsi şerləri daha oxunaqh edır:

***Gözlərinh***

***Gözlərimə işıq ver.***

***Giiliişiinlə***
***Gülşəıια dönsün həryer***

*(«Bəndə sal»)*

Şerlərdə bədii təzadlara daha çox rast gəlmək olar. Görünür bu da təbidir, zamannın ruhu ilə, şerlər kitabının adı ilə bağlıdır:

***Haqqa sığınan döyülür.***
***Haqqı tapdayan öyülür,***
***Düz söz söyləyən***

***söyülür,***
***Başa keçir yalan, nadan,***
***Baş açmadım***
***bu dünyadan*** *(«Baş açmadım bu dünyadan»)*

H.Isaxanlının poeziyası atalar sözü və məsəllərlə, frazeoloji birləşmələrlə zəngin olan poetik bir dildə yazılmışdır: Kölgə çökdü gözümüzə; Canımızı həsrət üzdü; Hicran min cür oyun qurdu; Həssas ürək qəmə batıb çürüməsə («lnsanı qəm, dəmiri nəm çürüdər»); Ağac içindən oyulur və s.

H.Isaxanlının şerləri bədii sözün imkanlarına yaxşı bələd olan, bədii dili zənginləşdirən kamil insanın bədii düşüncələridir, uğur və məhrumiyyətlərin nə olduğunu öz həyat təcrübəsində dərindən hiss etmiş həssas bir insanın ürək çırpıntılarıdır, qəlbinin səsidir.

***Gözümü nəğməylə***
***bağlayın bir gün...***
***Məni öz şerimlə***
***ağlayn bir gün***
*(«Etiraf»)*

Bu misralar söz sənəti ilə əbədiyyətə qovuşmaq arzusudur, sənətin zirvəsinə qalxmaq arzusudur. Sanki bülbül ən gözəl nəğməsini oxuyub, ölməzliyə qovuşmağa, əfsanəyə dönməyə can atır

***Aydın Qənbərov,***
*filologiya elmləri namizədi*